*Hekayə*

# ŞİMŞƏK

On dörd-on beş yaşım ancaq olardı. Həmin illərdə bizim bir atımız vardı. Adını Şimşək çağırırdıq. Açiq qırmızı rəngli bu atla kənddə heç bir at döşləşə bilmirdi. Yolla dördəmə ötüb keçəndə kimsə Şimşəyin boy-buxununa, hətta rənginə belə baxmağa macal tapmazdı. Çünki həmin anda havaya qalxan toz-duman Şimşəyin arxasınca boz bir pərdə çəkərdi. . .

Bayramlarda, şənliklərdə hərə öz atını minib Xəlilli irəməyə cıdıra çıxardı. Atların hər biri enişdə-yoxuşda iç olardı... Birinci yeri tutacaq atın adı isə əvvəlcədən bilinərdi. Buna görə də uşaqların Şimşəyi görməyə gözü yox idi. . . Onlar öz aralarında xısınlaşa-xısınlaşa ikinci yeri tutanı qalib sayardılar. . .



Şimşəyin qəşəng bir dayçası da vardı. Dayça elə bil ki, anasının burnundan düşmüşdü. Yavaş-yavaş ağzını otaələfə uzadırdı. Demək olardı ki, tam otuxmuşdu.

Bir gün qapımıza bir yük maşını gəldi. Sürücünün yanında `orta yaşlı bir kişi də vardı... Söhbətlərindən məlum oldu ki, atam dayçanı həmin kişiyə satır. Mən çox kefsizlədim. Amma nə edə bilərdim ki!? Bir kənarda dayanıb qəmgin-qəmgin onlara göz yetirirdim. Allaha yalvarırdım ki, kaş sövdələri baş tutmasın, qiymətdə razılaşmasınlar. Təəssüf ki, mən arzuladığım kimi olmadı. Sövdələri baş tutdu. Haqq-hesabdan sonra atam üzünü alıcıya tutub dedi:

-Bu dayça anasından da ötkəm olacaq. Amma sizin yeriniz dağlıqdır, indidən dırnağını-başını gözdən qoyma. Qoy pərmudə böyüsün. Tez-tələsik belinə yəhər vurma, yəhər belini basar, sonra gözünün odu qırılar!. .

Sürücü maşını çəpərimizin ayağındakı çökəkliyə verib saxladı. Mən durduğum yerdən tərpənmirdim. Sanki ayağımdan daş asılmışdı. Kənardan-kənara dayçamıza baxdıqca qəhərlənirdim. Qəhərlənirdim ki, bir daha onun üzünü görməyəcəm. Deyəsən, atam özü də bunu hiss etmişdi. Bəlkə də dayçanı maşının banına qaldıranda elə buna görə heç mənə demədi ki, yaxın gəl, bala, bir kömək elə. . .

Maşın yenicə tərpənmişdi ki, Şimşək şahə qalxdı. Yerlə-göylə əlləşməyə başladı. Sanki bu boyda dünyaya sığışa bilmirdi. Gah kişnəyir, gah da ayağını yerə döyüb fınxırırdı. Atam nə qədər əlləşsə də, atı sakitləşdirə bilmədi. Daha Şimşəyin gözünə nə yer görünürdü, nə də göy! O, hələ ilk dəfəydi ki, sahibinin üzünə ağ olurdu. Başını aşağı salıb, arxasını atama çevirərək dayanmadan qoşa təpik atırdı. Şimşək dartına-dartına axır ki, hörüyünü qırdı və götürüldü balası aparılan istiqamətə. . .

Atam daha hövsələdən çıxıb yornuq halda əyləşdi çəpərin dibindəki sal daşın üstə. Bilirdi ki, başqa hansı at olursa-olsun, onunla gedib nə Şimşəyə çatacaq, nə də onu tapacaq. Dərin fikrə daldı və birdən başını qaldırıb məni səslədi:

-A bala, cəld tərpən, Murtuza de, qoy motoskletini xodlayıb gəlsin!

Dörd-beş dəqiqənin içində Murtuz qapıda hazır oldu. Atam Murtuzun tərkində əyləşdi, mənsə motoskletin lötkəsində. O, ərkiyanə surətdə tez-tez Murtuzun üstə səslənirdi:

-Ayə, bir az əlli-ayaqlı ol! Görək bu çər dəymişə çatırıqmı!. .

Motosklet dərədən-təpədən qıvrıla-qıvrıla keçən yolla şütüyürdü. Bir xeyli getmişdik ki, qabaqda dayçanı aparan maşın, ondan bir qədər geridə Şimşək göründü. Atın maşına çatmağına elə bir məsafə qalmamışdı. Atam indi rahat nəfəs almağa başladı. Daha arxayın düşmüşdü ki, nə fəndləsə Şimşəyi geri qaytara biləcəyik. .

Birdən Şimşək möhkəm büdrədi və bədəni sürətlə gəlib başından aşdı. . . Yenidən ayağa qalxıb balasının arxasınca qaçmaq istədi. Ancaq ayağa qalxa bilmədi. Bədəni yay kimi gərildi. . . Başını dikəltməyə nə qədər can atdısa da, bacarmadı. Azacıq çabalayıb xub düşdü. Atam əvvəlcə çox sevindi:

-Şimşək bərk yorulub, indi asanca qaytaracağıq!

Bu sözləri deyib cəld motoskletdən düşərək, bizdən qabaq özünü Şimşəyə çatıran atamın rəngi birdən-birə ağardı. Vaysına-vaysına:"Atın bağrı çatladı!"-deyib hüznlü bir görkəm aldı. Son nəfəsdə olan Şimşəyin gözündən yaş sel kimi axırdı. Birdən başımı qaldırdım ki, atamın da kirpiklərindən yaş süzülür. Mən də özümü saxlaya bilmədim...

Murtuz motoskleti ilə qurdalanırdı. Dayçanı aparan maşın isə artıq gözdən itmişdi. . .

*2014*